26 FEVRAL XOCALI SOYQIRIMI GÜNÜDÜR

Xocalı faciəsi heç vaxt unudulmayacaq

Bakı

Azərbaycan Dillər Universitetində (ADU) Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Nəsimi rayon qeydiyyat şöbəsi və ADU-nun birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 25-ci ildönümünə həsr olunmuş tədbir keçirildi. Xarici ölkələrin respublikamızdakı səfirliklərinin nümayəndələri, Ədliyyə Nazirliyinin Nəsimi rayon qeydiyyat şöbəsinin əməkdaşları, Nəsimi rayonundakı 46 saylı orta məktəbin müəllim və şagirdləri, eləcə də ADU-nun professor-müəllim və tələbə heyətinin iştirak etdiyi tədbirdə soyqırımda həyatını itirən soydaşlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Tədbiri giriş sözü ilə açan **ADU-nun rektor vəzifəsini icra edən professor Əfqan Abdullayev** dedi: "Azərbaycan xalqı 200 il ərzində davamlı olaraq erməni millətçi-şovinistlərinin etnik təmizləmə və soyqırımı siyasətinə məruz qalıb. Zaman-zaman ata-babalarımız mənfur qonşularımızın məkrli siyasəti nəticəsində öz doğma yurd-yuvalarından didərgin düşmüş, onların çirkin xəyanətləri ilə üzbəüz qalmışdır. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə isə ermənilər bəşər tarixində görünməmiş, insanlığa sığmayan vəhşilik törətdilər. Ermənistan hərbi birləşmələri 7 min əhalisi olan Xocalı şəhərində soyqırım həyata keçirdi.

Ə.Abdullayev bildirib ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bu qanlı faciəyə ilk dəfə olaraq hüquqi-siyasi qiymət verildi. 1994-cü ildə ulu öndərin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi qəbul etdi.

Daha sonra tədqiqatçı-jurnalist, Xocalı sakini Səriyyə Müslümqızının ssenarisi əsasında lentə alınan və soyqırımı əks etdirən "Onlar heç vaxt böyüməyəcəklər" adlı sənədli film təqdim olundu.

Ədliyyə Nazirliyinin Nəsimi rayon qeydiyyat şöbəsinin rəisi vəzifəsini icra edən Aynur Sabitova Xocalı faciəsi zamanı soydaşlarımızın mütəşəkkil erməni quldur dəstələri tərəfindən soyqırıma məruz qalmasından söz açdı. Bildirdi ki, törədilən vəhşiliklərin görünməmiş miqyas aldığını, bütöv bir şəhərin yerlə-yeksan edildiyini, lakin bu qanın yerdə qalmayacağına əmin olduğunu vurğuladı.

Sonda tələbələrin təqdimatında "Qırmızı qar" adlı ədəbi-bədii kompozisiya nümayiş etdirildi.

Mehparə ƏLİYEVA,
"Respublika".

Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) Xocalı soyqırımının 25-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. Universitetin professor-müəllim heyətinin və tələbələrin iştirak etdiyi tədbir soyqırım nəticəsində şəhid olan soydaşlarımızın ruhunun bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Daha sonra Heydər Əliyev Fondunun Xocalı soyqırımı haqqında

hazırladığı film tədbir iştirakçılarına təqdim olunub.

Filmin nümayişindən sonra çıxış edən ADNSU-nun rektoru, professor Mustafa Babanlı Xocalı faciəsinin qan yaddaşımızda silinməz izlər buraxdığını, bu hadisənin ermənilər tərəfindən xalqımızın başına gətirilən tək müsibət olmadığını bildirib. 200 ildən artıq müddətdə erməni millətçiləri tərəfindən aparılan etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində minlərlə soydaşımızın həlak olduğu və ya öz doğma yurdlarından sürgün edildiyini deyən rektor M.Babanlı onların Xocalıda törətdiyi qırğının bütün bu proseslərin davamı olduğunu söyləyib: "1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri 366-cı motoatıcı alayın zirehli texnikasının və hərbi heyətinin köməyi ilə Xocalı şəhərini işğal etdi. Mühasirəyə alınan şəhər yandırıldı. Şəhəri tərk edən 2500 Xocalı sakinindən 613-ü qətliamın qurbanı oldu, 1275 nəfər əsir, 150 nəfər itkin düşdü. Biz bu tarixi unutmamalıyıq və şəhidlərimizin əziz xatirəsini daim ürəyimizdə yaşatmalıyıq".

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Xocalı soyqırımı, bütövlükdə ermənilərin azərbaycanlılara qarşı törətdiyi cinayətlər haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırıldığını deyən rektor bu gün bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini söyləyib.

Ölkəmizin inkişafı üçün hər kəsin öz sahəsi üzrə var gücü ilə çalışmalı olduğunu bildirən rektor, prof. Mustafa Babanlı bununla şəhidlərimizin ruhu qarşısında borcumuzu qismən də olsa, ödəmiş olacağımızı qeyd edib.

Sonda Fransız-Azərbaycan Universitetinin (UFAZ) tələbəsi Leyla Bağırova Xocalı soyqırımı haqqında şeir söyləyib.

* * *

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) nəzdində fəaliyyət göstərən Fransız-Azərbaycan Universitetinin (UFAZ) müəllim və tələbələrinin iştirakı ilə Xocalı soyqırımının 25 illiyi münasibətilə tədbir keçirilib. Tədbiri açıq elan edən UFAZ-ın direktoru Vazeh Əsgərov həmin faciənin unudulmasının qeyri-mümkün olduğunu qeyd edib və belə anım tədbirlərinin keçirilməsi vasitəsilə birliyin nümayiş etdirilməsinin əhəmiyyətini vurğulayıb.

UFAZ tələbələri tədbirdə ingilis dilində çıxış edərək Xocalıda xalqımızın başına gətirilən müsibətləri tədbir iştirakçılarının diqqətinə çatdırıblar. Universitetin tələbəsi bu gün bütün dünyaya həqiqətlərin tanıdılmasında əlimizdə silah kimi istifadə etdiyimiz milli qəhrəman, jurnalist Çingiz Mustafayevin Xocalı faciəsini əks etdirən kadrlarından bəhs edib. Daha sonra Heydər Əliyev Fondunun Xocalı soyqırımı haqqında hazırladığı ingilis dilində film nümayiş etdirilib. Filmin nümayişindən sonra UFAZ-ın müəllim kollektivi də hadisələrə öz münasibətini bildirib.

Sonda UFAZ-ın direktoru Vazeh Əsgərov UFAZ tələbələrinin Xocalı soyqırımının 25 illiyinə həsr olunmuş tədbirə yüksək səviyyədə hazırlaşdıqlarına görə öz təşəkkürünü bildirib.

Ramiz YUSİFLİ,
"Respublika".

Sumqayıt

Sumqayıt Apelyasiya Məhkəməsində Xocalı faciəsinin 25-ci ildönümünə həsr olunmuş tədbir keçirilmişdir.

Konfrans zalına yığışan tədbir iştirakçıları əvvəlcə Xocalı şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Sonra Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi Xocalı faciəsinin bəşəriyyət tarixinə insanlığa qarşı vəhşiliyinə və qəddarlığına görə ən dəhşətli kütləvi terror hadisəsi

kimi daxil olduğunu bildirmişdir. Natiq qeyd etdi ki, Dağlıq Qarabağ münaqişəsində Ermənistan silahlı birləşmələrinin təcavüzü nəticəsində torpaqlarının 20 faizini itirən Azərbaycanın 30 mindən çox vətəndaşı ermənilərin qanlı qəsdinin qurbanına çevrilmişdir. Bu qəsbkarlığın və işğalın ən dəhşətli olayı isə 25 il əvvəl - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda baş vermişdir. Həmin gün qabaqcadan planlaşdırılmış təcavüz aktı zamanı birləşmiş erməni silahlı dəstələri SSRİ-yə məxsus olan 366-cı motoatıcı alayının zirehli texnikası və canlı qüvvəsinin dəstəyi ilə Azərbaycanın bu şəhərdəki dinc sakinlərinə qarşı əsl qətliam törətmişlər.

Faciə haqqında ətraflı danışan S.Bəktaşi onu da əlavə etdi ki, Xocalıda baş vermiş soyqırımın bütün bəşəriyyətə çatdırılması və erməni vandallarının öz layiqli cəzalarını almaları üçün ulu öndər Heydər Əliyev, daha sonra Prezident cənab İlham Əliyev istər ölkə daxilində, istərsə də beynəlxalq müstəvidə çox böyük səylər göstərmişlər. Bu işlərin nəticəsidir ki, artıq 4 ölkənin - Kolumbiya, Meksika, Pakistan, Çexiya parlamentləri, habelə ABŞ-ın 6 ştatı Xocalı soyqırımını tanımış, İslam Əməkdaşlıq Təşkilatına üzv olan 55 ölkə də bu addımı atmışdır. Hazırda da bu işlər fəal davam etdirilir.

Sonra Sumqayıt Apelyasiya Məhkəməsinin aparat rəhbəri Yaqub Məmmədli Xocalı faciəsinin soyqırım olmasını tarixi faktlarla əsaslandırdı.

Daha sonra çıxış edən məruzəçilər — Sumqayıt Apelyasiya Məhkəməsinin hakimləri-İlham Həsənov, Azər Hüseynov və Şəmsəddin Abasov Xocalı hadisələrinin beynəlxalq səviyyədə tanıdılması və soyqırım kimi qəbul ediməsi istiqamətində ölkəmizdə görülən işlərdən geniş danışdılar.

Tədbirin sonunda Xocalı hadisələrinə həsr olunmuş sənədli film nümayiş etdirildi.

Söhrab SƏFİYEV,
"Respublika".

Gəncə

Azərbaycan Dövlət Aqrar Universitetinin professor-müəllim heyətinin və tələbələrin iştirakı ilə keçirilən "Xocalı soyqırımı XX əsrin ən dəhşətli faciəsidir" adlı tədbirdə faciə qurbanlarının ruhu bir dəqiqəlik sükutla yad edildi, əziz ruhlarına dualar oxundu. Sonra universitetin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov kütləvi qırğının baş vermə səbəblərindən, Xocalının o dövrdə tamamilə başsız qalmasından, bu faciəyə, eləcə də Dağlıq Qarabağ məsələsinə dünya birliyinin ikili münasibətindən əhatəli danışdı. Xocalıya hücuma fevralın 25-də axşam vaxtı 366-cı alayın hərbi texnikasının döyüş mövqelərinə çıxması ilə başlanılmışdı. Xocalıya üç istiqamətdən hücum aparıldığından əhali Əsgəran istiqamətində qaçmağa məcbur olmuşdu. Qarlı aşırımlarda və meşələrdə taqətdən düşmüş insan-

ların çox hissəsi erməni silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla məhv edilmiş, şəhər yerlə-yeksan olmuşdur. Ulu öndər Heydər Əliyev xalqın təkidli tələbli ilə hakimiyyətə qayıdışından sonra Xocalı faciəsi özünün əsl siyasi-hüquqi qiymətini aldı, soyqırımı haqqında həqiqətlərin dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görüldü.

Bu siyasət indi də davam etdirilir. Burada əsas məqsəd tarixi ədalətin bərpasına nail olmaq, soyqırım cinayətkarlarını dünya ictimaiyyətinin mühakməsinə verməkdir. Sözügedən siyasətin gerçəkləşməsində "Xocalıya ədalət" kampaniyası müstəsna rol oynayır.

Əslən Xocalıdan olan tələbə Nüranə Məhərrəmova, Toğrul Məmmədov, müəllimə Sevda Abdullayeva Xocalı ilə bağlı fikirlərini səsləndirib, böyük ürək yanğısı ilə qeyd etdilər ki, Azərbaycan xalqı zaman-zaman erməni millətçilərinin soyqırım siyasətinə məruz qalmış, himayədarlarının köməyi ilə doğma torpaqlarından qovulub, qaçqına, məcburi köçkünə çevrilmişlər.

Sonra Xocalı faciəsi ilə bağlı videoçarx nümayiş olundu. Tədbirin sonunda iştirakçılara universitetin tələbələrinin hazırladığı "Xocalı bir millətin deyil, insanlığın faciəsidir" adlı kompozisiya təqdim edilmişdir.

* * *

Gəncə Dövlət Universitetində professor-müəllim heyətinin və tələbələrin iştirakı ilə Xocalı faciəsinə həsr edilmiş "Xocalı soyqırımının 25-ci ildönümü" mövzusunda konfrans keçirilmişdir. Soyqırım qurbanlarının əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdikdən sonra Universitetin rektoru professor Yusif Yusibov ilk öncə ulu öndər Heydər Əliyevin cox qiymətli kəlamını iştirakçıların nəzərinə çatdırdı: "Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırım, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir." Bəli, tarixdə elə qanlı hadisələr var ki, təkcə bir xalqın taleyi ilə bağlı olmayıb, bütün bəşəriyyətə qarşı ağır cinayət hesab edilir. Erməni şovinist-millətçi qüvvələrinin azərbaycanlılara qarşı həyata keçirdikləri Xocalı soyqırımı məhz insanlığa qarşı törədilmiş bu cür amansız cinayətlər sırasındadır. Keçmiş SSRİ dövlətinin süqutu ərəfəsində xarici himayədarlarının dəstəyi ilə bu barbarlar Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə ərazi iddiası irəli sürərək, qanlı və dəhşətli faciələr törətdilər. Tarixən xalqımıza məxsus Qarabağda - bu gözəl və səfalı torpaqlarda hələ də

sönməyən münaqişə ocağı alovlandıran xain qonşularımız özlərinin "Böyük Ermənistan" yaratmaq xülyasını gerçəkləşdirmək üçün ləyaqətsiz üsullardan, ən dəhşətli vasitələrdən qəddarlıq və amansızlıqla istifadə etməklə saysız-hesabsız qətllər, irimiqyaslı dağıntılar törətdilər, qədim yurd yerlərimizi xarabazara çevirdilər. Rus ordusuna məxsus olan 366-cı motoatıcı alayın hərbçilərinin bilavasitə iştirakı və köməyi ilə erməni faşistləri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə 7 min əhalisi olan Xocalı şəhərində genosid aktı həyata keçirdi. Həmin vaxt şəhərdə 3 minə yaxın insan qalmışdı. Çünki, mühasirədə qaldığı 4 ay ərzində əhalinin xeyli hissəsi şəhərdən çıxmaq məcburiyyətində olmuşdu. Xocalı soyqırımı zamanı 613 nəfər öldürüldü. Bunlardan 106 nəfəri qadın, 63 azyaşlı uşaq, 70 nəfəri isə qocalıq yaşında idi. 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil oldu. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirdi. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürüldü, onların 150-sinin taleyi indi də məlum deyil.

Bu gün nəinki regionda, eləcə də bütün dünyada öz nüfuzunu durmadan artıran müstəqil Azərbaycan dövləti qarşıda duran bütün vəzifələri, o cümlədən öz qanuni ərazilərini işğaldan azad etmək gücündədir və Dağlıq Qarabağda üçrəngli bayrağımızın dalğalanacağı gün uzaqda deyildir. Xocalı soyqırımını törədənlər, mütləq öz layiqli cəzalarını alacaqlar!

Humanitar məsələlər üzrə prorektor dosent Gülsüm Fətəliyeva "Xocalı faciəsi bəşəriyyət tarixində ən qanlı faciədir" adlı məruzəsində Xocalı soyqırımının əsrin dəhşətli faciəsi olduğunu bildirdi.

Gəncə Dövlət Universitetinin YAP ərazi ilk partiya təşkilatının sədri, Azərbaycan tarixi kafedrasının dosenti Cavid Bağırzadə, Ümumi tarix kafedrasının dosenti Hüseyn Bəxtiyarov həmin kafedranın dosent əvəzi Etibar Musayev etdikləri məruzədə Xocalıda baş verənlərin Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırımı olduğunu konfrans iştirakçılarına çatdırdılar.

Sonda tələbələrin ifasında Xocalıya həsr olunmuş ədəbi-bədii kompozisiyalar nümayiş etdirildi.

Daşkəsən

Azərbaycan Respublikası Prezidentinin 24 yanvar 2017-ci il tarixli 2612 nömrəli Sərəncamını və Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin 24 yanvar 2017-ci il tarixli 17 nömrəli Sərəncamını rəhbər tutaraq Daşkəsən Rayon İcra Hakimiyyətində Xocalı soyqırımının 25-ci ildönümünə həsr edilmiş ümumrayon anım tədbiri keçirilmişdir. Yığıncaq iştirakçıları əvvəlcə Şəhidlər Xiyabanında olmuş, orada əbədi məşəlin önünə və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin məzarlarına gül dəstələri və çiçəklər qoymuşlar.

Mədəniyyət Mərkəzində davam etdirilən tədbirdə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev tədbirdə çıxışında qeyd etmişdir ki, 25 il əvvəl - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törədiblər.

Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olmuşdur.

Son illər aparılan uğurlu xarici siyasət nəticəsində Azərbaycan xalqının və ümumən insanlığın əleyhinə yönəldilmiş bu son dərəcə ağır hərbi cinayət beynəlxalq miqyasda öz hüquqi-siyasi qiymətini almaqdadır.

Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, ölkə Prezidenti cənab İlham Əliyevin apardığı uğurlu xarici siyasət sayəsində hazırda bu proses Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir və Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, eləcə də bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində davamlı olaraq iş aparılır.

Sonra tədbirdə rayon mədəniyyət işçilərinin və Daşkəsən şəhər A.Mürsəlov adına 2 nömrəli tam orta məktəbin müəllim və şagirdlərinin hazırladıqları ədəbi-bədii kompozisiya nümayiş etdirilmiş və Xocalı faciəsindən bəhs edən sənədli filmə baxış olmuşdur.

Zabit XƏLİLOV,
"Respublika".

Qazax

Qazax Rayon İcra Hakimiyyətinin və Bakı Dövlət Universitetinin Qazax filialının birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 25-ci ildönümünə həsr olunmuş anım mərasimi və elmi-praktik konfrans keçirilib.

Universitetin akt zalında keçirilən tədbirdə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

BDU Qazax filialının direktoru, coğrafiya elmləri doktoru, professor Vüsət Əfəndiyev konfransı giriş sözü ilə açaraq Azərbaycanın üzləşdiyi işğal və etnik təmizləmə siyasətinin tarixi mərhələləri və bu kontekstdə ermənilərin Azərbaycana köç tarixi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin təfərrüatları, Xocalı soyqırımı barədə tədbir iştirakçılarına geniş məlumat verib.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxışında qeyd edib ki, XX əsrdə Azərbaycan xalqına qarşı törədilmiş soyqırımlardan ən ağrılısı Xocalı faciəsidir. Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olmuşdur. 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni-daşnak silahlı qüvvələri və keçmiş sovet 366-cı motoatıcı alayı Xocalıya divan tutdu.

Həmin vaxt dünya ictimaiyyətinin diqqəti bu dəhşətli soyqırıma yönəldilməli və hadisəyə hüquqi-siyasi qiymət verilməli idi. Lakin, ovaxtkı hakimiyyət tərəfindən bunların heç biri edilmirdi.

Milli Məclisin 1994-cü ilin fevral ayında keçirilən iclasında Xocalı soyqırımı müzakirə edildi və hadisəyə hüquqi-siyasi qiymət verildi. Xocalı soyqırımı ilə bağlı qərar da həmin yığıncaqda qəbul edilərək fevral ayının 26-sı "Xocalı soyqırımı günü" elan olundu.

R.Babaşov bildirib ki, belə qanlı, bəlalı günlər Qazaxdan da yan keçməmiş, 7 kəndimiz işğal olunmuşdur. Bunun nəticəsidir ki, bu gün rayonumuzda 275 şəhid ailəsi, 377 nəfər Qarabağ Müharibəsi əlili, 2310 nəfər Qarabağ Müharibəsi veteranı və 7902 nəfər məcburi köçkün statusuna malik vətəndaşımız var.

Anım mərasimində "Xocalı soyqırımı" adlı film nümayiş etdirildikdən sonra tələbələr faciəyə həsr olunmuş şeirlər söyləyiblər.

Elmi-praktiki konfransın sonunda Xocalı soyqırımına həsr olunmuş müxtəlif mövzularda məruzələr dinlənildi.

Vəli VƏLİYEV
"Respublika".